**24 yaşlı Fərəh Mohammed Azərbaycanda tibbi təhsil alan əcnəbi tələbələrdən biridir. Birləşmiş Ərəb Əmirliklərində anadan olub. Fərəh Azərbaycan Tibb Universitetinin III kursunda oxuyur. "Azərbaycan müəllimi"nin suallarını cavablandıran əcnəbi tələbə ilə söhbətimizdə oxucularımız üçün maraqlı ola biləcək bir sıra məqamlara toxunduq.**




# "Azərbaycan mənim üçün ən uyğun seçim oldu"

*- Niyə məhz təhsil üçün Azərbaycanı seçdiniz?*

- Azərbaycana gəlmək mənim üçün asan oldu, çünki bura olduqca yaxındır - cəmi üç saatlıq uçuş məsafəsindədir. Artıq burada üç ildir ki, təhsil alıram, xüsusilə soyuq havanı çox sevirəm.

Əslində, mən Ukraynada tibb təhsili alırdım, amma müharibə başlayanda bizi oradan geri göndərdilər. Müharibənin tezliklə bitməyəcəyini bildiyimdən təhsilimi davam etdirmək üçün başqa ölkələr arasında seçim etməyə başladım. Araşdırma apardım, bir neçə yuxarı kurs tələbəsi ilə əlaqə saxladım, Gürcüstan, Qazaxıstan və Azərbaycan kimi ölkələri nəzərdən keçirdim. Azərbaycan mənim üçün ən uyğun seçim oldu, çünki onu ölkəmə daha yaxın hesab etdim. Yuxarı kurs tələbələrindən buradakı akademik və əlavə dərs fəaliyyəti haqqında müsbət rəylər eşitdim. Bundan başqa, BƏƏ və Körfəz regionundan olan bir çox tələbələrin buranı seçdiyini bilirdim. Üstəlik, Azərbaycanın təhlükəsiz və dinc bir ölkə olması da mənim üçün çox vacib idi. Bu, xüsusilə tək səyahət edən bir qız üçün daha çox diqqət yetirilməli məqamdır.

*- Deməli, buradakı təhsil gözləntilərinizə cavab verir. Universitetinizdəki tədris yanaşmaları sizi motivasiya edirmi?*

- Bəli, məni ən çox motivasiya edən müəllimlərin bilikli və yardım etməyə həvəsli olmasıdır. Əvvəl onların aksentini başa düşmək mənim üçün çətin idi, amma zamanla öyrəşdim. Müəllimlər öz sahələrində peşəkardırlar və dərsdən sonra da tələbələrə kömək etməyə hazırdırlar. Tədqiqatlara və seminarlara dəstək vermələri də tibb təhsili alan bir tələbə üçün çox vacibdir. Buna görə də bu universitetdə oxumaqdan məmnunam.

*- Bunu eşitmək sevindiricidir. Yeri gəlmişkən, Azərbaycan dilini öyrənməyə ehtiyac hiss etmisiniz? Ən çox hansı söz və ifadələri öyrənmisiniz?*

- Bəli, təbii ki, yeni bir ölkəyə gələndə onun mədəniyyətinə və dilinə uyğunlaşmaq lazımdır. Universitetimiz ilk semestrdə Azərbaycan dili kursu təşkil etmişdi və bu, çox maraqlı idi. Əsas ünsiyyət qaydalarını öyrəndik, məsələn, ünsiyyət üçün lazım olan "salam" və "necəsən?" kimi sözləri, həmçinin bazarlıq edərkən lazım olan rəqəmləri öyrənmişəm. "Pomidor" və "soğan" kimi tərəvəzlərin adlarını da əzbərləmişəm. Buradakı insanlar çox mehribandırlar. Dili bilməsən belə, sənə kömək etməyə hazırdırlar.

*- Çox maraqlıdır, bir gününüz necə keçir? Tələbə həyatı sizin üçün rahat və maraqlıdır, yoxsa çətinlikləriniz var?*

- Semestrin əvvəlində yalnız dərslərə getmək kifayət edir, amma sonralar iş rejimi daha gərgin olur. Dərslərim adətən, 8:30-da başlayır, gündə üç-dörd dərsim olur. Bəzi günlərdə dərslər 14:00-da bitir, bəzən isə bu, 16:00-a qədər davam edir, bu da yorucu ola bilər. Tibb təhsili hər yerdə çətindir, ona görə də hər gün oxumaq lazımdır. Aralıq imtahan və final dövrü daha gərgin keçir, amma davamlı oxusan, idarə etmək mümkündür.

## Əcnəbi tələbə:

## "Azərbaycan Tibb Universitetində oxumaqdan çox məmnunam"

*- Sizi Azərbaycan mədəniyyəti ilə bağlı ən çox nə təəccübləndirdi?*

- Açığı, buradakı insanların xarici tələbələrə bu qədər mehriban yanaşacağını gözləmirdim. Onlar çox dostcanlıdırlar və insana mehriban yanaşırlar. Mən əslən hindli olduğum üçün çoxu soruşur ki, Şah Rux Xanla tanışam, ya yox. Hind mədəniyyətinə göstərdikləri maraq çox xoşdur. Burada özümü heç vaxt yad hiss etməmişəm. İnsanlar qonaqpərvərdir və tez-tez mədəniyyətimlə bağlı komplimentlər edirlər. Üstəlik, Azərbaycan bir müsəlman ölkəsidir və bu, mənə çox güvən verir. Hətta gecə saat 2-də tək gəzməli olsam belə, özümü təhlükəsiz hiss edirəm. Hər yerdə polis patrulları var, bu da böyük üstünlükdür.

*- Dostlarınıza Azərbaycanda təhsil almağı tövsiyə etsəniz, buranı necə təsvir edərdiniz?*

- Buranı mütləq tövsiyə edərdim. Xaricdə oxumaq çox gözəl bir təcrübədir, Azərbaycan təhlükəsiz, mədəni və qonaqpərvər ölkədir. Xaricdə ilk dəfə təhsil alan tələbələr üçün bura uyğun yerdir, çünki uyğunlaşmaq asandır. Hindistanla mədəni oxşarlıqlar var və bu, insanı daha rahat hiss etdirir. Azərbaycanın güclü mədəni kökləri var və tələbələr üçün gözəl bir seçimdir.

*- Təhsilinizi bitirdikdən sonra vətəninizə qayıtmağı düşünürsünüz?*

- Bəli, qayıtmağı planlaşdırıram, çünki ailəm BƏƏ və Hindistandadır. Onlar məni öz ölkəmdə həkim kimi görmək istəyirlər. Mən də doğma ölkəmdə təcrübə qazanmaq istəyirəm. Bundan sonra ya təhsilimi davam etdirmək, ya da həkim kimi işləmək qərarını verəcəyəm. Dörd ilim qalıb, ona görə də bunları həyatın axarına buraxıram. Həddindən artıq plan qurmaq stres yarada bilər, ona görə də vəziyyətə uyğun qərar vermək mənim üçün daha yaxşıdır. Amma indiki planım vətənə qayıdıb lisenziya imtahanını verməkdir.

**Gülsüm XƏLİLOVA**